AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS




www.pq.mia.gov.az

polisazerbaycan

12 oktyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 39 (3653)

## Cənubi Qafqazda sülh zamanı

### Prezident İlham Əliyevin təşəbbüsü dəstəklənir

**Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə oktyabrın 8-də bu ölkəyə işgüzar səfər etməsi, sözsüz ki, hazırkı strateji tərəfdaşlıq münasibətlərini bir qədər də möhkəmləndirdi.**



İqtisadi əlaqələr və ticari münasibətlər, enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlıq iki dövlətin qarşılıqlı maraqlarını təmin etməklə xalqlarımız arasında ənənəvi dostluq bağlarını da bərkidir.

Baş nazir İrakli Qaribaşvili bəyanatında vurğuladığı kimi, Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından biridir və hər il ilk beşlikdə yer alır. Bu il ticarət həcmi 15 faiz artıb. Hər iki ölkə Orta Dəhliz layihəsinin inkişaf perspektivlərini nəzərdən keçirir. Buraya limanların inşası və genişləndirilməsi, dəmir və avtomobil yollarının inkişafı, müasirləşdirilməsi daxildir. Tezliklə Anakliyada yeni limanın inşa edilməsi, Şərq-Qərb magistral yolunun tikintisinin yekunlaşması və bir neçə aydan sonra Bakı-Tbilisi-Qars layihəsinin bitməsi ikitərəfli münasibətlərə yeni töhfə olacaq.

**Sülh yaxındadır...**

Qeyd edilən əməkdaşlıq sahələrinin regional uğuruna isə, nəhayət, bütövlükdə Cənubi Qafqazda sülhün bərqərar edilməsinə çalışan Azərbaycan Prezidentinin təşəbbüsünün, diplomatik səylərinin dəstəklənməsi zəmin yarada bilər. Prezidentin Gürcüstana işgüzar səfəri məhz bu kontekstdə daha çox diqqət çəkir. Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərinin Prezident İlham Əliyevin fikirləri ilə tam üst-üstə düşdüyünü deyən Baş nazir İrakli Qaribaşvilinin Azərbaycan, Ermənistan və Gürcüstan xalqlarının regional məsələlərinin özlərinin həll etməli olmasını vurğulaması dövlət başçımızın bu çağırışının qarşılıq gördüyünü göstərir.

Prezident İlham Əliyevin bəyanatından bəlli olur ki, sülh həm zaman, həm də coğrafi baxımdan çox yaxınlıqda ola bilər. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan normallaşma prosesinə toxunarkən qeyd edib ki, üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü, keçən ay isə bütün ölkə üzrə suverenliyini bərpa edib. Hazırda bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışır: **“Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi”.**

Azərbaycan Prezidenti eyni yanaşmanın Ermənistandan da gözlənildiyini deyib. Yəni əgər Ermənistan tərəfindən də razılıq olarsa, Gürcüstanda sülh görüşləri başlaya bilər.

## Azərbaycanın mövqeyi qətidir

### Prezident şərtlərini diktə edir

Oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti əsnasında regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı qeyd edib ki, Qranadada Azərbaycanın iştirakı olmadan Azərbaycan adının dördtərəfli bəyanata daxil edilməsi düzgün yanaşma deyil. Fransanın məlum mövqeyinə görə Azərbaycanın Qranadadakı görüşdə iştirak etmədiyini bildirən dövlətimizin başçısı xüsusilə vurğulayıb ki, Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır.

Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, onların azad olunmasının vacibliyini vurğulayıb.

## Qəbulda Qarabağdan danışılıb

### Mədəni abidələr polis tərəfindən mühafizə olunur

Prezident İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı da fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı vurğulayıb ki, “Laçın” dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib. Hazırda Azərbaycanın tibbi heyəti Xankəndidə yerli əhaliyə xidmətlər göstərir.

Prezident, həmçinin ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, bütün bunların da Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının həyata keçirilməsinin göstəricisi olduğunu deyib.

## Rəsmi xəbərlər

- Prezident İlham Əliyev oktyabrın 11-də bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 6-da Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi”ndə dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.



## Daxili işlər naziri qəbul keçirib

### Müraciətlərin müsbət həlli məmnunluq doğurur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 10-da Masallı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Masallı rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

*(Ardı 2-ci səhifədə)*



20 il xalqın xidmətində — 2

Ehtiramla anırıq — 3

İtirdiklərimiz və itkinlərimiz — 3

Nəğməyə dönən oğullar — 4

# Vətəndaş qəbulu keçiriləcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən oktyabr ayının 25-də Ağcabədi Rayon Polis Şöbəsinin inzibati binasında Ağcabədi, Ağdam, Bərdə, Laçın və Zərdab şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 24.10.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in **mia.gov.az** internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Normallaşma prosesi müzakirə edilib

Oktyabrın 9-da xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ilə görüşüb. Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regiondakı mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində ölkəmiz tərəfindən atılan addımlar barədə fikir mübadiləsi aparılıb. Görüşdə nazir Ceyhun Bayramov yaradılmış elektron portal vasitəsilə yerli erməni sakinlərin qeydiyyatı prosesinin aparıldığını, Ermənistanın "etnik təmizləmə" iddialarının reinteqrasiya prosesini pozmağa yönəldiyini diqqətə çatdırıb.

### Müdafiə naziri tapşırıqlar verib

Oktyabrın 9-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti təhlil edilib. Hava hücumundan müdafiə, kəşfiyyat və əks kəşfiyyat, radioelektron mübarizə və digər bölmələrin gücləndirilməsinə dair konkret tapşırıqlar verilib. Qış dövrü ərzində bölmələrin döyüş hazırlığı və hərtərəfli təminatı məsələləri, eləcə də təhlükəsizlik qaydalarına əməl olunması ilə bağlı qoşun növü komandanlarına müvafiq tapşırıqlar verilib.

### Füzuli sakinləri yurdlarına dönür

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Oktyabrın 10-da növbəti karvan Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürülüb. Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Füzuli şəhərində 165 ailənin, yəni, 602 nəfərin daimi məskunlaşması təmin ediləcək.

### Qeyri-neft sektoru sürətlə inkişaf edir

Son 30 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollar investisiya yatırılıb, bu vəsaitin 200 milyard dolları isə qeyri-neft sektorunun payına düşüb. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsindən bildirilib ki, son 20 ildə Azərbaycan iqtisadiyyatı 4 dəfə böyüyüb, dövlət büdcəsinin gəlirləri 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsində isə 10 dəfə artım qeydə alınıb.

### "Təmiz hava" aylığı keçirilir

Oktyabr ayının 10-dan noyabr ayının 10-dək Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublika ərazisində "Təmiz hava" aylığına start verib. Əsas məqsəd atmosfer havasının avtonəqliyyat vasitələrinin ixrac qazlarının tərkibində olan zərərli maddələrlə çirkləndirilməsi hallarının qarşısının alınmasıdır. Ətraf mühitə atılan tullantılarda müəyyən edilmiş normadan artıq çirkləndirici maddələr olan avtomobillərin idarə edilməsinə və onların istismara buraxılmasına yol verən fiziki və hüquqi şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

# 20 il xalqın xidmətində

## Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın qəhrəmanlıq salnaməsini qızıl hərflərlə yazdı

**Xalqımızın taleyində elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən önəmli başlanğıcların əsası qoyulub. Belə mühüm günlərdən biri də oktyabrın 15-dir.**

2003-cü il oktyabrın 15-də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı.

Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə Heydər Əliyevin siyasi kursuna səs vermişdi o gün. Xalqımız bununla sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Öz ümummilli hədəflərimizə çatmaq arzusu ilə vətəndaşlar İlham Əliyevin növbəti prezident seçkilərindən də qalib çıxmasına səs verirdi.



### Qələbəyə aparan quruculuq

Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağın Azərbaycandan qoparılması ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi, xalqımızı ordumuzun gücünə inandırdı. Azərbaycanda müasir və güclü müdafiə sənayesi quruldu. İqtisadi uğurlarımız daha da böyüdü, ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı.

Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu.

Nəhəng infrastruktur layihələrinin, Olimpiya İdman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verdi. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin tikilməsi səhiyyə sisteminin inkişafına müstəsna təsir göstərdi.

Ölkədə minlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı.

### Ali Baş Komandanın Zəfəri

Dövlət başçısı kimi fəaliyyətinin 20-ci ildönümündə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi isə İlham Əliyevin adını həm də dünya tarixinə mahir diplomat və müzəffər sərkərdə olaraq yazdı. Artıq İlham Əliyevin siyasi dühası Azərbaycanın sərhədlərini aşıb. Çünki "Nəyi, necə, nə vaxt" etmək lazım olduğunu dəqiq müəyyən edən Prezidentin yüksək peşəkarlıqla və qətiyyətlə həyata keçirdiyi strateji plan ona gətirib çıxarıb ki, dünyanın qanlı bir münaqişəsi qapanıb. Qarabağın separatçı rejimi tam təslim olub. Azərbaycan müstəntiqləri bir vaxtlar özlərini "prezident", "nazir" hesab edənləri dindirir, əli xalqımızın qanına batanlar üçün ədalət divanı qurulur.

Prezident İlham Əliyev uzun onilliklərin əsas probleminə bir həmlə ilə nöqtə, daha doğrusu, nida qoydu. Ölkəmizin suverenliyini və konstitusiya quruluşunun təminini 23 saat ərzində həll edən dövlətimizin başçısı Azərbaycanı iki əsrdir təhdid edən, xalqımıza qarşı qanlı soyqırımlar törədən, ərazi itkiləri yaşadan işğalçılıq siyasətini beləcə tamamilə iflasa uğratdı. Ulu öndərin Qarabağın xilası ilə bağlı arzuları, vəsiyyəti Müzəffər Komandanın rəhbərliyi ilə gerçəyə çevrildi. Ümummilli liderin vətəndaş müharibəsinin, parçalanmanın cəngindən aldığı Azərbaycanın suverenliyini Prezident İlham Əliyevin məhz "Heydər Əliyev İli"ndə bərpa etməsi, bəlkə də tarixin və taleyin xalqa bağışladığı ömrünə görə ulu öndərə bir minnətdarlığıdır.

### Qarabağ cənnətə dönür...

Bu gün artıq Prezidentin "Qarabağı cənnətə çevirəcəyik" sözləri reallaşmaqdadır. Dövlət başçısının Qarabağa davamlı səfərləri bu prosesdə mühüm yer tutur. Prezident Şuşa, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcər, Laçın, Xocavənd rayonlarına dəfələrlə səfərlər edib, azad edilmiş ərazilərdə infrastruktur təməlləri qoyub.

Bu səfərlərin real nəticələri var. İndi azad edilmiş bölgələrdəki hər bir şəhər və rayon üzrə layihələndirilmiş işlər icra edilir, mühüm sahələr yenidən qurulur, su, elektrik, qaz xətlərinin, yolların tikintisi aparılır, bir çoxları isə artıq istifadəyə verilib. İnsanların doğma yurdlarına dönməsi üçün ərazilərin minalardan təmizlənməsi daha intensiv aparılır.

Xalqımız əmindir ki, hər dəfə yüksək səs çoxluğu ilə Prezidet seçdiyi İlham Əliyevin rəhbərliyi altında tezliklə Qarabağda da həyat canlanacaq.

# Daxili işlər naziri qəbul keçirib

## Müraciətlərin müsbət həlli məmnunluq doğurur



*(Əvvəli 1-ci səhifədə)*

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Masallı, Yardımlı, Lerik, Astara, Lənkəran şəhər və rayonlarından qəbula gələn 95 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 18-i Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 71 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Ehtiramla anırıq

## Naxçıvanda şəhid ailələri ziyarət olunub

27 sentyabr - Anım Günü və 8 noyabr - Zəfər Günü ilə əlaqədar həyata keçirilən tədbirlər planına uyğun olaraq Naxçıvan MR-nın daxili işlər naziri polis general-mayoru Süleyman Neymətov, Daxili Qoşunların "N" saylı hərbi hissəsinin komandiri general-mayor Səlim Niftalıyev Daxili Qoşunlarının şəhid hərbi qulluqçuları-kapitan Şamil Babayevin və baş çavuş Sahib Məmmədovun ailə üzvlərini ziyarət ediblər. Görüşlərdə Daxili Qoşunların hərbi qulluqçularının Vətən müharibəsində keçdikləri şərəfli döyüş yolundan, qəhrəmanlıq nümunələrindən bəhs edilib, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin şəhid ailələrinə, eləcə də qazilərə göstərdiyi diqqət və qayğıdan danışılıb. Şəhid ailələrinin sosial rifahının, habelə mənzil-məişət şəraitinin yaxşılaşdırılması ölkə başçısının bütün dövlət qurumları qarşısında qoyduğu bir nömrəli prioritet vəzifə olduğu vurğulanıb.

Şəhid ailə üzvləri onlara göstərilən həssas münasibətə, xüsusi diqqət və qayğıya görə ölkə, o cümlədən DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

*Teymur Əlizadə*
*polis mayoru*

# Qadın polislər də xidmətdə idi

## Onlar vəzifələrini yüksək səviyyədə yerinə yetiriblər

Oktyabrın 2-dən 6-dək Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində təşkil olunan sərginin təhlükəsizliyinin təmin edilməsinə qadın polis əməkdaşları da cəlb edilib.

Bakı şəhər Baş Polis İdarəsindən bildirilib ki, qadın əməkdaşlar arasında xidmət yeri, gecə və gündüz olmaqla növbəlilik prinsipilə iş bölgüsü müəyyən edilib. Əsasən nəzarət-buraxılış postunda xidmət edən qadın həmkarlarımız əvvəlki beynəlxalq əhəmiyyətli kütləvi tədbirlərdə xidmətə cəlb edilmiş təcrübəli əməkdaşlar arasından seçilib.

Onlar ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yüksək səviyyədə yerinə yetiriblər.

# Böyük hədəflərə doğru

## Bir polisin həyatı bir ailənin həyatına çevriləndə...

**Qədim türklərin döyüş ənənələrinə görə ailələrin də hərbi yürüşlərə aparılması hər kəsi istər-istəməz müsəlləh döyüşçüyə çevirirdi. Yəni bir döyüşçünün həyatı bir ailənin həyatı idi.**

Bu, ilkin mənası ilə analogiya aparmaq üçün çox fərqli həyat tərzi kimi görünsə də, bir az polis ailəsinin yaşam tərzini andırır. O anlamda ki, qanun keşikçisinin işinin xarakteri ailənin həyatına təsirsiz ötüşmür. Sıralarımızda atasının məsləyini davam etdirən polis övladlarının olması bu bənzərliyin hələ görünən tərəfidir. Əməkdaşın ailə fərdləri elə onun özü qədər dövlət, qanun, hüquq sevən, hətta, bu ali dəyərlərin keşikçisi olurlar.

DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin şöbə rəisi, polis polkovniki Rahid Ələkbərovun hüquq təhsili alan qızlarının ixtisas seçimlərinə bəlkə heç özləri fərqində olmadan tarixdən gələn bu genetik kodlar və qanunun keşikçisi olan atalarının haqq mübarizəsi yön verib.

Məxmər və Zəhra Ələkbərzadə bacıları paytaxtda yerləşən Xocalı şəhər 2 saylı tam orta məktəbi fərqlənmə ilə bitiriblər. Bakı Dövlət Universitetinin hüquq fakültəsində sonuncu kursunda oxuyan Məxmər qəbul zamanı 673 bal toplayıb. İndiyədək bütün semestrləri əlaçı olaraq başa vurub. İkinci qızı Zəhra isə bu il Azərbaycan Diplomatik Akademiyasının 609 bal toplamaqla tədrisi ingilis dilində aparılan hüquq fakültəsinə daxil olub.

Hamı üçün ümumməcburi davranış qaydalarının məcmusu kimi başa düşülən hüquq metodiki olaraq, obrazlı ifadə ilə desək, həm də "dövlət tərbiyəsi" verir. Deməli, bu mənada, Ələkbərzadə ailəsi də dövlətin sanksiyalaşdırdığı dəyərləri qoruyanların səfində yer alır.

Övladlarının yüksək balla nüfuzlu təhsil müəssisələrinə qəbul olunmasından bir ata kimi qürur hissi keçirən polis polkovniki R.Ələkbərov hesab edir ki, ictimai qayda və təhlükəsizliyi qorumağın, cinayətkarlıqla mübarizənin ilk dayağı elə ailədir. Vətənə, dövlətə, xalqa sevgi ailə ocağında körüklənir: "Bu, mənim qızlarıma bir az da ana babalarının - Milli Qəhrəman Tofiq Hüseynovun qanıyla keçib".

Xatırladaq ki, 1991-ci ildə Xocalıda özünümüdafiə taboru yaradan Tofiq Hüseynovu "Mixaylo" kimi də tanıyıblar. Onun adı cəbhə boyu dolaşıb və sonuncu döyüşü Xocalıda fevralın 26-da olub - əsrin ən böyük soyqırımı yaşanan gün. O, neçə-neçə dinc sakini təhlükəsiz yerə çıxara bilib. Sonuncu gülləsinə qədər vuruşaraq şəhid olub.

Bakıda "məskunlaşan" Xocalı məktəbini bitirən Məxmər və Zəhranın məhz hüquq fakültəsində təhsil almaları ilə azad olunmuş Xocalıda tapdanan ədalətin bərpası və hüquq qaydasının nizama salınması arasında sanki ilahi bir bağlılıq var. Qəhrəman babanın ruhu da təsəlli tapıb. Bu iki gənc yalnız polis ailəsinə aid övlad deyil, eyni zamanda, sabah ölkənin hər yerində, o cümlədən Qarabağda qanunu qoruyacaq gəncliyi təmsil edir. Deyəsən, tale ananın damarları ilə onlara qəhrəmanlıq, dövlətin əmin-amanlığı üçün atadan fədakarlıq ərmağan edib.

Eyni ilə qədim döyüşçülərin həyatı kimi...

*Rəşad Mehtiyev*

# Gələcəyimiz naminə...

## Polislər təlimdə iştirak edib

Ailə, Qadın və Uşaq Probemləri üzrə Dövlət Komitəsi tərəfindən erkən uşaqlıq dövrü ilə əlaqədar keçirilən təlimdə polis əməkdaşları da iştirak edib.

Oktyabrın 10-da başlayan təlim iki gün çəkib. Sabunçu rayon "Gənclər evi" sosial xidmət müəssisəsində keçirilən təlimə paytaxtda yerləşən polis idarələrinin yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorları, digər dövlət qurumlarının nümayəndələri, eləcə də psixoloqlar qatılıb.

İştirakçılara, uşaqlara psixoloji dəstəklə bağlı seminarlar keçirilib və sertifikatlar təqdim edilib.

# Məktəblilərlə görüş

## Uşaqları qorumaq üçün öyrədirik



Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsi və 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin əməkdaşları "Diqqət uşaqlar!" adı altında paytaxtda yerləşən 7 orta məktəbdə maairfləndirici görüş keçiriblər. Tədbirlərdə BŞDYPİ-nin inspektoru, polis kapitanı Pərvanə Muradova və operator, polis serjantı Elnur Mahmudov iştirak edib.

Uşaqların təhlükəsizliyi və yol hərəkəti qaydalarının öyrədilməsi məqsədilə keçirilən görüşlərdə yol hərəkəti iştirakçılarının əsas vəzifələri, işıqforun tələbləri və yol təhlükəsizliyinə dair uşaqların bilməli olduğu məlumatlar diqqətə çatdırılıb, şagirdlərə bukletlər paylanılıb.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# İtirdiklərimiz və itkinlərimiz

## Beynəlxalq aləmin diqqətini bu məsələyə yönəltmək diplomatik uğurumuzdur

**Müstəqilliyimizin ilk illərində dövləti ayaqda saxlamaq üçün onun iqtisadi dayaqları ilə yanaşı, siyasi xəttini müəyyənləşdirən layihələrin hazırlanması, normativ-hüquqi bazanın formalaşdırılması prioritetlərdən olsa da ictimai sabitliyi etibarlı əllərə həvalə etmək həlli vacib problemlərin öhdəsindən gəlmək qədər müşkülə çevrilmişdi.**



Lakin bütün çətinliklərə baxmayaraq, dövlətin etibar etdiyi güc kimi polisin həm ön, həm də arxa cəbhədə xidməti, sözün əsl mənasında, nəfəslik rolunu oynadı. Təsadüfi deyil ki, həmin dönəmdə mübarizə sözü ilə polis sözü bir-birinin sinonimi kimi işlənirdi...

Birinci Qarabağ müharibəsində Azərbaycan Polisi bəlkə də dünya hərb tarixində ilkə imza atdı. Döyüşən polis ifadəsi bu gün leksikonumuzda ona görə fəxarətlə səslənir ki, biz cəbhə, səngər, müharibənin odu-alovu deyəndə ilk yadımıza düşən həm də polis olur.

Yeri gəlmişkən, yüzlərlə əməkdaşı şəhidlik zirvəsinə ucalan daxili işlər orqanlarının taleyi bu gün də naməlum olan əməkdaşları var. Qeyd edək ki, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 3890 vətəndaşımız itkin düşüb. İtkin düşmüş şəxslərdən 872 nəfərin vaxtilə işğal altında olmuş ərazilərdə qalmasına dair təkzibedilməz məlumatlar mövcuddur.

2020-ci ildə torpaqların işğaldan azad edilməsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün yeni imkanlar açsa da, təəssüflər olsun ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini kobud şəkildə pozaraq itkin düşmüş şəxslərin və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları Azərbaycan tərəfinə təqdim etmir. Səbəb törədilən növbəti hərbi cinayətlərin, vəhşiliklərin üstünün açılmasından ehtiyat etməsidir...

İnanırıq ki, dünyanın diqqətinə çatdırdığımız, adlarını beynəlxalq kürsülərdən səsləndirdiyimiz vətəndaşlarımızın, həmkarlarımızın da çox yaxın zamanlarda taleyinə aydınlıq gətiriləcək.

Gəlin, itirdiklərimizi və itkinlərimizi tanıyaq:

**Nəsimi RPİ-nin əməkdaşı, polis kapitanı Əhmədzadə Şahin Əyyub oğlu 1992-ci ilin may ayının 8-də itkin düşüb.**

**Qax RPŞ-nin əməkdaşı, polis baş leytenantı Məmmədov Əhməd Mustafa oğlu Şuşanın işğalı zamanı itkin düşüb.**

**Zəngilan RPŞ-nin əməkdaşı, polis leytenantı Paşayev Sabir Əziz oğlu 1993-cü ilin oktyabrında Cəbrayılda itkin düşüb.**

**Kəlbəcər RPŞ-nin əməkdaşı, polis baş serjantı Allahverdiyev Famil Heydər oğlu 1994-cü ilin yanvar ayının 25-də Kəlbəcərdə itkin düşüb.**

**Ağdam RPŞ-nin əməkdaşı, polis baş serjantı Ağayev Həsənalı Kommunist oğlu 1993-cü ilin iyunun 13-də Ağdamda itkin düşüb.**

**Ağdam RPŞ-nin əməkdaşı, polis serjantı Əliyev İman Qanboy oğlu 1993-cü ilin 22 iyununda Ağdamda itkin düşüb.**

**Qax Rayon Mühafizə Bölməsinin əməkdaşı, polis serjantı Lətifov Rəcəb Lətif oğlu 1992-ci il mayın 8-də itkin düşüb.**

**Xocalı Mühafizə Bölməsinin əməkdaşı, polis serjantı İlyasov Əhməd Məhəmməd oğlu Xocalının müdafiəsi zamanı itkin düşüb.**

**Ağdam RPŞ-nin əməkdaşı, polis serjantı Mustafayev Həsən Rəhbər oğlu 1992-ci il 13 iyun tarixində Ağdamda itkin düşüb.**

**Sözardı:** Nə vaxtsa doğmalarının qapısı döyülüb, onlar tapıldı deyəcəklər. Kim bilir, bəlkə bu gün, bəlkə sabah...

*Hafiz Təmirov*

# Cinayətlərin istintaqı aparılır

## Tədbirlər daha kəskin xarakter alıb

Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən ümumilikdə 30 nəfər saxlanılıb. Onlardan yaş çəkisi 18 kiloqramdan artıq olan çətənə kolu, 3 kiloqrama yaxın heroin, metamfetamin və marixuana aşkarlanıb.

Həmçinin qeyd edilən dövr ərzində rayon ərazisində oğurluq faktları törədərək zərərçəkmişlərə maddi ziyan vuran 5, adam oğurluğu cinayəti törədən 3 nəfər şəxs də müəyyən edilərək istintaqa təqdim olunub.

Aşkarlanan bütün faktlarla bağlı Sabirabad RPŞ-nin İstintaq Bölməsində cinayət işləri başlanılıb.

# Qobuda əməliyyat keçirilib

## Qanunsuz dövriyyədən 35 kiloqram narkotik vasitə çıxarılıb



Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində növbəti əməliyyat həyata keçiriblər.

Bölməyə əvvəllər məhkum olunmuş Arafat İsmayılovun Qobu qəsəbəsində yaşadığı evin həyətində çətənə bitkilərini əkib-becərdiyi, həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirdiyi barədə əməliyyat məlumatı daxil olub. Evə baxış zamanı 7 kiloqram marixuana, həyətyanı sahədən isə kultivasiya yolu ilə yetişdirilən 68 ədəd ümumi çəkisi 28 kiloqram çətənə kolu aşkarlanaraq götürülüb. A.İsmayılov ifadəsində narkotik tərkibli bitkiləri bir müddət əvvəl əkdiyini və xüsusi qulluq edərək yetişdirdiyini etiraf edib.

Faktla bağlı Qobu Polis Bölməsində toplanan materiallar araşdırılmaq üçün rayon polis idarəsinin istintaq şöbəsinə göndərilib.

# Nəğməyə dönən oğullar

## Notlara həyat verən polisin Vətən musiqisi

Xalqımız Vətən müharibəsində döyüşmək istedadını yenidən nümayiş etdirdi. Meydangirliyimizin qəfəsə salındığı illərin sanki heyfini çıxdığı 44 günlük haqq savaşımızda. İllər öncə məcburi köçkün həyatının məngənəsində sıxılan, çadır şəhərciklərində doğulan uşaqlar həsrətdən beli bükülən, saçı ağaran ata-analarından öncə əsgər kimi, zabit kimi görmədikləri, bələd olmadıqları yurd yerlərinə qovuşmağın sevincini yaşadılar.

Sevincini, yanğısını səsinin, barmaqlarının şirinliyinə qatanlar müharibə bitdikdən sonra Azərbaycan musiqisinin də Vətən müharibəsində döyüşdüyünü minlərə, milyonlara çatdırmağı xəyal etsələr də arzusuna çatanlar çox az oldu. Düşmən gülləsi onları sıramızdan qoparsa da, səsləri, ifaları yaddaşımızda qaldı.



Məsələn, Xudayarın "Vətən yaxşıdır" təsnifini oxuması ilə sıradan bir müğənninin oxuması arasındakı fərq hər mənada özünü göstərir. Vətən andı içmiş, əyninə müqəddəs uniforma geyinmiş əsgərin, gizirin, zabitin Vətən yaxşıdır deməsinin təsir gücü ən dağıdıcı zəlzələlərə bərabərdir. Dinləyici Vətən keşikçisinin Vətən yaxşıdır fikrinə ona görə inanır ki, Vətənin bütövlüyü uğrunda hər an canından keçməyə hazır olan biri bunu deyir...

Vətən müharibəsi iştirakçısı, Cəbrayıl və Qubadlının azad olunmasına görə medalları ilə təltif edilən polis kiçik serjantı Əzizbəy Muradovla Xudayar Yusifzadə Vətən müharibəsində bəlkə də ayrı-ayrı cəbhədə döyüşsələr də onları birləşdirən bir arzu, bir amal idi: Vətənin azadlığı. Çünki bu azadlıqda hər şey vardı: Qara buludsuz göylər, aydın səma, yerlə-yeksan olunan ocaqlara tarixi qayıdış və bir də dalğa-dalğa ucsuz-bucaqsız çöllərə yayılan Vətən musiqisi...

Əzizbəy şirmayi dillərini əzizləyə-əzizləyə "İncəbellim"i ifa etdiyi pianonun yaddaşında bəlkə də qalmayacaq. Ancaq bizim yaddaşımızda o bir qəhrəman kimi qalacaq. Müharibə bitdikdən sonra Vətənə xidmətini davam etdirmək istəyi onu daxili işlər orqanlarının sırasına gətirmişdi. DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı kimi asayişi qorudu, sabitliyin keşiyində dayandı...

Antiterror tədbirlərində Azərbaycan əsgərinə dayaq olmaq, təhlükəsizliyi təmin etmək üçün səfərbər olunan Azərbaycan Polisinin ön sırasında musiqiçi, Vətən müharibəsi iştirakçısı və polis kiçik serjantı Əzizbəy Muradov da vardı. Can qurtarmağa gedərkən düşmən məkri onunla birlikdə qardaşlarımızın canını aldı. Bu dəfə "Adını mən qoydum, ömrünü tanrı versin" deyən dədəmiz Qorqudu göylər eşitmədi. "İncəbellim" Əzizbəysiz qalsa da, o Vətən tariximizə, müsiqi dünyamıza əbədilik həkk olundu.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Təcrübə təkmilləşdirilir

## Dünya çempionu Polis Akademiyasının qonağı olub





Bü günlərdə DİN-in Polis Akademiyasında "Atma fəndlərinin təkmilləşməsi" mövzusunda seminar keçirilib.

Akademiyanın müəllim heyəti də daxil olmaqla, seminarda 30-dan çox kursant iştirak edib.

Seminara təlimatçı qismində dəvət edilən sərbəst güləş üzrə 4 qat Avropa, 3 qat dünya çempionu, Rio-de-Janeyro 2016 və Tokio 2020 Olimpiya oyunlarının mükafatçısı, Prezident təqaüdçüsü və "Tərəqqi" medallı Hacı Əliyev kursantlara xidmət zamanı qarşılaşa biləcəkləri vəziyyətə uyğun davranmaları, o cümlədən atma fəndlərini peşəkar tətbiq etmələri ilə bağlı tövsiyələrini verib.

Dünya çempionu kursantlarla təcrübəsini bölüşüb, onların suallarını cavablandırıb.

Qeyd edək ki, seminarda xüsusilə fərqlənən I kurs kursantları Ramin Əhmədov, İlkin Nağızadə və IV kurs kursantı İbrahim Vəliyev dekabr ayında keçiriləcək sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatında iştirak edəcəklər.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Kriminalistikada yeni mərhələ

## Barmaq izləri bu üsulla tanınacaq

Bir ildən artıqdır ki, İsveç polisi cinayət yerlərindən götürülmüş gilizlərin üzərindəki barmaq izlərini daha tez aşkarlamağa imkan verən yeni texnologiyadan istifadə edir. Texnologiya həm istintaq araşdırmasında, həm də yeni cinayətlərin qarşısının alınmasında polisin imkanlarını xeyli artırıb.

Milli Məhkəmə-Tibbi Ekspertiza Mərkəzində gilizlər onların üzərindəki izləri rəqəmsal şəkildə skan edən konteynerə yerləşdirilir. Cavablar məlumat bazasında saxlanılır. Onları araşdırdıqdan sonra mütəxəssis gilizin hər hansı bir silahla əlaqəli olub-olmadığını müəyyən etmək imkanı əldə edir. Bu məlumatlar, öz növbəsində, istintaqın silahdan istifadə edən şəxslərin izinə düşməsinə və ya cinayət mühitini müəyyən etməsinə kömək edir.

Eyni zamanda, əgər əvvəllər laboratoriyadan cavabın alınması yeddi həftəyədək davam edirdisə, bu gün həmin müddət 14 saata enib. Mütəxəssislər bu vaxtın üç saata endirilməsi üçün iş aparırlar.

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Yeni planlar qurulur

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



*(Əvvəli ötən sayımızda)*

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

### Qisas planı baş tutmur

Xanım Noel onunla zarafatımı bağışlaya bilmirdi. Qisas almaq üçün evindən bütün əşyaları çıxardı, küçədə evindən oğurluq olduğu barədə qışqırmağa başladı. Qonşuları şahid kimi çağırdılar, Komissara ərizə yazıldı. Evinin açarı məndə olduğuna görə xanım Noel məni oğurluqda günahlandırdı. İttiham ciddi deyildi, amma bu barədə dərhal prefektlə məlumat verdilər. İzahım çox sadəydi. Prefekt və cənab Anri o saat gördülər ki, burada yalan və böhtan var. Prefektura tərəfindən başlanan istintaq onunla nəticələndi ki, guya itən əşyalar tapıldı. Xanım Noelə tövbə üçün vaxt vermək məqsədilə altı aylığa Sen-Lazara – həbsxanaya göndərdilər.

Mən bir xəfiyyəmizin satqınlığının hansı problemlər yaratdığını danışdım. Mən artıq çoxdan o həqiqəti bilirdim ki, sirri yalnız heç kimə söyləmədən saxlaya bilərsən. Sirr saxlamaq iradənin imtahanıdır. Bu imtahandan həmişə hamı keçmir. Öz sirrini saxlamaq müdriklik, bu sirri başqalarının da saxlaya biləcəklərinə ümid etmək axmaqlıq idi. Uğurun açarı sirlərimizi açmamaqdadır. Baş vermiş hadisə bir daha məni o qənaətə gəlməyə vadar etdi ki, imkan olduqca tək işləmək lazımdır. Növbəti vacib hadisə zamanı mən məhz belə etdim. Əmin oldum ki, ağızdan çıxan sözü, yaydan çıxan oxu, tüfəngdən çıxan gülləni geri qaytara bilməzsən...

### Oğru Fossarı necə həbs etməli?

İki keçmiş residivist katorqaçı Qoro və Şatelen ləqəbli Florento islah olunmaz oğrular kimi cəza çəkirdilər. Həbsdən bezdikləri üçün cənab Anriyə məktubla müraciət etdilər ki, Parisdə oğurluqla məşğul olan bir neçə oğru yoldaşlarının yaxalanması üçün məlumatlar verəcəklər.

Ömürlük katorqaya məhkum edilən, bir neçə dəfə qaçan Fossar ən təhlükəli oğru sayılırdı. Yazırdılar ki, Fossar çox cəsarətli insandır, yalnız çox tədbirli şəkildə ona yaxınlaşmaq olar. Başdan-ayağa silahlanan bu oğru söz vermişdi ki, ona yaxınlaşan hər hansı polis agentini mütləq güllələyəcəkdir.

Polis bu cür şəxsin paytaxtda fəaliyyətinə son qoymaq istəyirdi. İlk ağıla gələn fikir bu oldu ki, cənab Anri onu izləməyi mənə tapşırsın. Amma məsləhətləşdikdən sonra məlum oldu ki, Fossar və onun məşuqəsi məni yaxşı tanıyır. Buna görə, digər polis agentlərinin xidmətindən yararlanmağa qərar verildi. Bu agentlərə əlimizdə olan bütün məlumatlar verildi. Ya bu agentlərin bəxti gətirmədi, ya da onlar başdan-ayağa silahlı olan Fossara özləri yaxınlaşmaq istəmirdilər. Fossar yenə Parisdə fəaliyyət göstərirdi. Gələn şikayətlər göstərirdi ki, bu zabitlər işdən çox səs-küy yaradırlar.

Hər bir əməliyyatın sakit keçirilməsinə, səs-küy yaranmamasına üstünlük verən prefekt bu zabitləri çağırdı və onları danladı. Zabitlərin üzlərindəki ifadə deyirdi ki, onları möhkəm danlayıblar.

Onlardan biri - İvrieni küçədə görüb salam verdim, o, mənə yaxınlaşdı. Hirsli səslə dedi:

- Böyük qəhrəman, igidliklər göstərən cəsur, bu sizsiniz! Sizin ucbatınızdan biz hansısa, qaçaq katorqaçı Fossara görə töhmət almışıq. Deyəsən o, Parisdə avaralanır. Cənab prefekta qulaq asanda, belə məlum olur ki, yalnız siz nəsə edə bilərsiniz. O deyir ki, Vidoku göndərsəydik, şübhəsiz ki, o, çoxdan bu Fossarı yaxalamışdı. Bəs, sizə nə olub cənab Vidok? Əgər siz belə mahirsinizsə, onda zəhmət olmasa bu oğrunu yaxalayın. Öz məharətinizi göstərin.

İvrie yaşlı insan idi və onun bu sözlərinə layiq olduğu cavabı verməkdən çəkindim. İstehzalı sözlərdən çox incisəm də, özümü ələ aldım və sakit şəkildə cavab verdim ki, Fossarı yaxalayacam və 1 yanvarda prefektə ötən il Delzevi hədiyyə etdiyim kimi hədiyyə edəcəm.

- Yaxşı, olsun – deyə İvrie cavab verdi. Nəticələr sizin kim olduğunuzu göstərəcək. Baxaq görək, siz iş bacaransınız, yoxsa sadəcə lovğasınız. O yenə mənim ünvanıma eşidə bilmədiyim epitetlər deyə-deyə uzaqlaşdı.

Bu hadisədən sonra cənab Anrinin yanına getdim və hər şeyi ona danışdım.

- Hə, onlar çox qəzəbləniblər. Bu yaxşıdı, bu bir daha göstərir ki, sizin məharətinizin fərqinə varıblar. Mən görürəm ki, bu cənablar hərəmxanadakı xədimlərə bənzəyirlər. Özləri heç nəyə qadir deyillər, elə düşünürlər ki, digərləri də onlar kimidir.

*(Ardı var)*

# Maraq doğuran kəşf

## Üzümüzdəki barkod cinayətkarlıqla mübarizəyə kömək edəcək



Aldığımız məhsulların qiyməti onların üstündəki barkodların oxunması ilə müəyyən edilir. Son illərdə gündəlik həyatımızı asanlaşdırmaq üçün istifadə edilən barkod sisteminin bir bənzərinin də insan üzündə mövcud olduğunu bilirdiniz?

Yaradanın bənzərsiz fərqlilikdəki yaratma sənətinin təcəllisi kimi insanların hər biri fərqli üzə malikdir. Ancaq üzlər nə qədər müxtəlif və çox olsa da, tanış birinin üzünü tanımaq bir neçə saniyə çəkir.

### Beyindəki üz tanıma prosesi necə baş verir?

Üzün tanınması vizual korteksdə baş verən çox mürəkkəb prosesdir. Bu tanıma prosesinin beyində necə həyata keçdiyini araşdıran elm adamları çox təəccüblü nəticələrlə qarşılaşıblar. Çünki aparılan tədqiqatlarda üzün beyin tərəfindən oxunan barkod sisteminə malik olduğu kəşf edilib. Bu sistemə əsasən:

Əvvəlcə qaşlar, gözlər, dodaqlar kimi üfüqi xətt əmələ gətirən xüsusiyyətlər beyin tərəfindən qavranılır, sonra bu xətlər qara və ağ rənglərdə kodlanır.

Dəri və yanaqlar parlaqlığına görə ağ, dodaqlarımız, qaşlarımız və göz çuxurlarımız da kölgəliklərinə görə qara kodlanır.

Tədqiqatı aparan doktor Dakin: "Bu cür üfüqi məlumat xətləri supermarket barkodlarını xatırladır", - deyərək bu kod sisteminə diqqət çəkib.

Elm adamları üzdəki barkod sisteminin "daha yaxşı üz tanıma proqramları" hazırlamaq baxımından çox vacib olduğunu bildirirlər. Üz tanıma proqramları nə qədər təkmil olsalar da, insanların çoxluq təşkil etdiyi yerlərdə üzləri tanımaqda çətinlik çəkirlər. Ancaq üzdəki bu barkod sisteminin təqlid edilməsi polislərin hava limanında cinayətkarları müəyyən etmək üçün istifadə etdiyi kameraların təkmilləşdirilməsinə kömək edəcək.

*Hazırladı:Ruhiyyə Əliyeva*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik